**HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR**
**HUMANITIES AND SOCIAL SCIENCES**

DOI: https://doi.org/10.36719/2663-4619/114/9-12

**Günel Allahverdiyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-8013-7741
babayeva2009@hotmail.com

# İngilis dili dərslərində multimedia materiallarının seçilməsi və interaktiv istifadəsi

## Xülasə

Elmi-texniki innovasiyaların böyük təsiri ilə bilik iqtisadiyyatı getdikcə təkmilləşdirilir. Burada sözsüz ki, dil faktoru əhəmiyyətli rol oynayır. Əvvəllər dahi mütəfəkkirlər və alimlərin əksəriyyəti öz əsərlərini latın, ərəb, fransız, alman və digər dillərdə yazırdılar. Ancaq ötən əsrdən etibarən ingilis dilinin qlobal dilə çevrilməsi nəticəsində dünyanın bütün ölkələrində elmi əsərlərin yazılmasında daha çox bu dilə üstünlük verildi.

Bütün dünyada təhsil sistemləri yeni texnologiyalardan təsirlənir. Onlar vasitəsilə tələbələrə XXI əsrdə ehtiyac duyulan bilik və bacarıqlar öyrədilir. Dünya ölkələri gəncləri informasiya və texnologiyaya əsaslanan cəmiyyətə hazırlamaq üçün tədris/təlim prosesində dəyişikliklər edirlər. Multimedia müəllim mərkəzli və əsasən də, qrammatikanın öyrədilməsinə əsaslanan dərsləri zəngin, tələbə yönümlü, interaktiv mühitə çevirir. Sözsüz ki, burada müəllimlərin üzərinə böyük məsuliyyət düşür. Onlar belə imkanlardan faydalanmağın yollarını tələbələrə öyrətməlidirlər.

İngilis dilində audio və ya video materialları dinləyərkən qeyd götürmək ən yararlı vərdişlərdən biridir. Bu zaman tələbə dinlədiyi materialda ən vacib hissələri qeyd edir və materialda bu qeydlərə əsaslanaraq nədən bəhs edildiyi haqqında danışır. Qeyd götürmə zamanı sadəcə yazıdan deyil, həm də şəkillərdən, qısa işarə və simvollardan və s. istifadə etmək olar. Onlar fikirləri toplamağa, sintez etməyə və ümumiləşdirərək onları çatdırmağa imkan verir.

***Açar sözlər:*** *xarici dil, audio və video material, texnologiya, cəmiyyət*

**Gunel Allahverdiyeva**
Azerbaijan State Pedagogical University
PhD in Philology
https://orcid.org/0000-0001-8013-7741
babayeva2009@hotmail.com

# Selection and Interactive use of Multimedia Materials in English Lessons

## Abstract

With the great influence of scientific and technological innovations, the knowledge economy is gradually being improved. Here, of course, the language factor plays an important role. Formerly, most of the great thinkers and scientists wrote their works in Latin, Arabic, French, German and other languages. However, since the last century, as a result of the transformation of English into a global language, this language has been preferred in writing scientific works in all countries of the world.

Educational systems all over the world are affected by new technologies. Through them, students are taught the knowledge and skills needed in the 21st century. Countries around the world are making changes in the teaching/learning process to prepare young people for an information and

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

technology-based society. Multimedia turns teacher-centered and mainly grammar-based lessons into a rich, student-oriented, interactive environment. Of course, teachers have a great responsibility here. They should teach students how to benefit from such opportunities.

Taking notes while listening to audio or video materials in English is one of the most useful habits. At this time, the student notes the most important parts of the material he listens to and talks about what is being discussed in the material based on these notes. When taking notes, you can use not only writing, but also pictures, short signs and symbols, etc. They allow you to collect, synthesize and summarize ideas and convey them.

***Keywords:*** *foreign language, audio and video material, technology, society*

## Giriş

Yaşadığımız dövrdə qloballaşma fenomeni tamamilə yenidən formalaşdırıb. Texnologiyalar yeni qlobal iqtisadiyyatın formalaşmasında və cəmiyyətdə sürətli dəyişikliklərin yaranmasında əsas amilə çevrilmişdir. Bu proses insanların, ümumilikdə cəmiyyətin həyatını dəyişmək potensialına malikdir. Son onillikdə texnologiyanın təqdim etdiyi yeni imkanlar həyatın hər bir sahəsində fəaliyyət tərzini əsaslı şəkildə dəyişdi. Təhsildə də texnoloji vasitələr müəllim və tələbələrin rollarını dəyişdirmişdir.

Texnologiyadan istifadə ünsiyyəti asanlaşdırsa da, bugünkü tələbələr sürətlə dəyişən qlobal cəmiyyətdə özlərini formalaşdırmaq və cəmiyyətdə öz yerlərini tutmaq üçün düşüncə tərzinə malik olmalıdırlar. Tələbələr özlərində tənqidi təfəkkürü yaradaraq öz təcrübələrindən öyrənirlər. Tənqidi düşüncə dedikdə müxtəlif perspektivlərdən mövzuların dərindən araşdırılması və müqayisə edilməsi həmçinin, təsnifatı, ardıcıllıq, planlaşdırma və s nəzərdə tutulur. Multimedia texnologiyalarından istifadə həm tədris prosesində, həm də tələbələrin yaradıcılıq qabiliyyətlərinin inkişafında yeni imkanlar açır (Əliquliyev, Mahmudov, 2018).

**Tədqiqat**

Cəmiyyətin informasiyalaşdırılmasının aparıcı tendensiyalarından biri multimedianın inkişaf etdirilməsidir. Zəngin məzmun və forma, müxtəlif növ mətn, qrafik, nitq, musiqi, video, foto məlumatlar təmin edən bu texnologiyalar müxtəlif informasiya və məlumatlar çatdırmaqla öyrətmə mühitini daha da maraqlı edir. Fəal öyrənmə mühitinin yaradılması üçün siniflər xüsusilə, kompüter avadanlıqları ilə təchiz olunmalıdır.

Tədrisin təşkili və tədqiqatların aparılmasında kompüterlərin əhatə dairəsi çox genişdir. Kompüter texnologiyalarının tədris prosesinə inteqrasiyasının prioritet məsələlərinə aşağıdakılar daxildir: psixoloji və pedaqoji struktur; tədris kompüter vasitələrinin sistemləşdirilməsi; təlimdə internet şəbəkəsinin rolu (Mehrabov, 2012).

Daima yenilik axtarışında olan insanlar dilin daşıdığı bütün xüsusiyyətləri rahat şəkildə informasiya texnologiyaları ilə əldə edirlər. Bu texnologiyaların təqdim etdiyi imkanlar mədəni insan mühitini olduqca dəyişdirib. Həm sosial həyatlarında, həm də evlərində insanlar istədikləri məlumatı elektron formada əldə edirlər. Elektron informasiyanın hazırlanması, sistemləşdirilməsi, mühafizəsi və əldə edilməsi istiqamətində elektron kitabxanalar əsas diqqət mərkəzindədir. Bu kitabxanalar vasitəsilə dil haqqında istənilən kitabı onlayn şəkildə əldə etmək mümkündür. Burada informasiya xidməti oxuculara kompüterləşmiş şəkildə çatır. Bu anlayış geniş məna kəsb edir və elmi ədəbiyyatda “virtual kitabxana”, “şəbəkə kitabxanası”, “divarsız kitabxana” və “hibrid kitabxana” kimi ifadələr “elektron kitabxana” anlayışına sinonim kimi işlədilə bilər. Hazırda informasiya texnologiyalarının təklif etdiyi üstünlüklərdən biri də multimedia texnologiyalarıdır (Cuban, 2001). 90-cı illərin əvvəllərində meydana çıxan Multimedia Qalereyası (MQ) vasitələri və bir neçə il sonra elektron kitablar və qəzetlər, yeni təhsil texnologiyaları, videokonfranslar, qrafik dizayn vasitələri, audiotexnologiya, videopoçt və s. insanları təhsil sistemində müxtəlif xidmətlərlə təmin edir. Dili mükəmməl şəkildə öyrənmək ancaq o dildə danışanların davranışlarını və həyat tərzini kəşf etməklə mümkün ola bilər. Multimedia tələbələri həmin dildə danışan insanlara məxsus səs və görüntülərlə təmin edir. “Multimedia” sözünün mənası “çox vasitə” (latınca “multi” – çox, “media” – vasitə) deməkdir. Bu texnologiya informasiya texnologiyaları ilə müqayisədə gənc

sahədir. Bu sahə informasiyanın saxlanmasına yeni yanaşma təmin edir. "Multimedia qalereyası" təyinatına aşağıdakılar daxildir: 1. kompüterə daxil edilən, emal olunan, saxlanılan və ötürülən texnoloji məlumatlar (mətn, qrafik, rəqəmsal, video, səs, nitq); 2. vizual təsvir və effektlərin idarə edilməsi üçün interaktiv proqram təminatı; 3. interaktiv hərəkətsiz səs, videokadrlı, statik təsvirlərlə və mətnlərlə kompüter qrafikalı oyun; 4. fərqli informasiyanın təqdim edilməsi əsasında yaradılmış informasiya resursu; 5. informasiyanı təqdim edən müxtəlif tipli proqram təminatı (Haşımova, 2016, s. 147).

Multimedia texnologiyaları ilə dərs prosesini aşağıdakı mərhələlərə bölmək olar:

1. Multimedia avadanlıqlarının quraşdırılması və konfiqurasiyası. Burada əsas iş təhsil müəssisələrinin texniki şöbəsi üzərinə düşür. Müəllimlər də burada fəal olmalıdırlar.
2. Multimedia materiallarının hazırlanması. Burada müəllimlər mövzu üzrə seçim edir və fərqli multimedia təqdimatları hazırlayır.
3. Multimedia materiallarından istifadə. Bu mərhələdə hazırlanmış materiallar mühazirələrdə, praktiki və laboratoriya işlərində tələbələrə göstərilir.
4. Tədris prosesinə nəzarət. Burada multimediadan istifadənin tədris prosesinin keyfiyyətinə göstərdiyi təsir qiymətləndirilir.

Multimedianın köməyi ilə informasiya mətn, audio, qrafika, animasiya və ya video formasında ötürülür. Bu cür informasiya formaları kitablar, jurnallar, audio-vizual vəsaitlər, elektron media, radio, TV, kompüterlər vasitəsilə ötürülür və qəbul edilir. Multimedia aşağıdakı kateqoriyalara bölünür:

1. Qrafik media: kitablar, şəkillər, fotoşəkillər, xəritələr, diaqramlar, qrafiklər və s.
2. Displey media: qara lövhə, bülleten lövhəsi, flanel lövhə və s.
3. Üç ölçülü media: modellər, obyektlər, nümunələr və s.
4. Proqnozlaşdırılan media: slaydlar, filmlərdən lentlər, video lentlər, qrammofonlar və s.
5. Audio media: radio, audio kasetlər, qrammofonlar, səs yazıları və s.
6. Video media: TV, videokasetlər, CD, kompüterlər və s.

Audio və video materialların təqdimatında ən geniş istifadə olunan tətbiq Microsoft PowerPoint proqramıdır. Bu proqramla dərslərin təşkili zamanı "PPP", yəni "Presentation, Practice, Production" yanaşması üç hissədən ibarət təqdimetmə təşkil edir. "Presentation" mərhələsində müəllim situasiyaya uyğun olaraq ingilis dilində materialları təqdim edir. O, hər hansı bir hekayə danışır, kiçik audio klip və ya fərqli mənbələrdən əldə etdiyi şəkillər göstərir. "Practice" mərhələsində müəllimin nəzarəti altında tələbələr ingilis dilini vəziyyətə uyğun tətbiq edirlər. Bu zaman onlar cümlələr qurur və düzgün şəkildə ifadə edənə qədər təkrarlayırlar. "Production" mərhələsində isə tələbələr artıq ingilis dilini sərbəst şəkildə istifadə edirlər. Buraya daha çox simulyasiyalar və müzakirə mövzuları kimi kommunikativ fəaliyyətlər daxildir (Parviz, Sarem, 2012, s. 33).

**Multimedia texnologiyalarından istifadə.**

Multimedia vasitələrinin səmərəli şəkildə istifadəsi üçün universitetlərdə auditoriyaların texniki vəziyyəti yaxşılaşdırılmalı və İKT sahəsi düzgün qurulmalıdır. İnformasiyanın qəbul olunması və ötürülməsi prosesini asanlaşdırmaq üçün bunların nəzərə alınması zəruridir.

Multimedia texnologiyaları onlayn təhsil formasının təşkilində əsas tədris vasitələridir. Onların köməyi ilə səs, şəkil, məlumat və mətn kimi dörd əsas alternativlə dərslər təşkil olunur (Teeler, Gray, 2000):

1. Səs: Səs kimi qeydə alınan məlumatlar yayım vasitəsilə ötürülür. İnteraktiv texnologiyaya daxil olan telefon, videokonfrans və qısadalğalı radio tədris audio materialları hesab olunur.

2. Şəkillər: Texnoloji cihazlar vasitəsilə əvvəlcədən qeydə alınmış şəkillər canlı yayım vasitəsilə tələbələrə çatdırılır. Tədris video alətləri kimi slaydlar, kinofilmlər (film və videolent), real vaxt rejimində səslə birləşən təsvirlərdən nümunələr göstərilə bilər.

3. Məlumat: Kompüterlər məlumatı elektron formada daşıyır. Distant təhsil üçün istifadə olunan kompüter proqramları çox müxtəlifdir.

4. Mətn: Distant təhsil proqramlarının əsas elementi çap materiallarıdır. Bunlara dərsliklər, dərs planı, əlavə kitablar misal göstərilə bilər (Hüseynova, 2021, s. 99).

Müasir universitet tələbəsinin yalnız bir sahə üzrə ixtisaslaşması dövrün tələblərinə uyğun deyil. Sosial həyatda yaranan dəyişikliklərə görə o, fərqli situasiyalara adaptasiya olmağı bacarmalı, komanda tərkibində işləyə bilməli və ətrafdakılara motivasiya verməlidir. O, həmçinin, fikirlərini ifadə etmək üçün yeni mexanizmlər və üsullardan yararlanmalıdır. Bu xüsusiyyətlərə malik gənc kadrların formalaşmasında kütləvi informasiya vasitələrinin rolu böyükdür. KİV materiallarını oxuyarkən və dinləyərkən tələbə ədəbi dil normalarını özündə ehtiva edən dillə tanış olur, çünki burada hər şey dilin təbliği üçün çalışır.

KİV materiallarını seçərkən diqqətli olmaq lazımdır. Belə ki, onlar sadəcə informasiya verməklə kifayətlənmir, həm də etik mədəniyyətin, milli şüur və təfəkkürün göstəricisi kimi çıxış edirlər. Məişət, publisistik və ədəbi-bədii üslubda təqdim olunan materiallar demək olar ki, hər gün yaranan yeni sözləri görməyə və yadda saxlamağa imkan verir.

Hal-hazırda ingilis dilində yazılan gündəm xəbərləri daha çox oxunur. Gündəlik məlumatlar insanlara çatdırılarkən məzmununun anlaşıqlı olması üçün dilin fonetik, leksik və qrammatik normalarına riayət edilir. Müəllimlər ingilis xəbər agentliklərinə məxsus materialları tələbələrə tövsiyə edərək ünsiyyət prosesinə qoşulmaları üçün onları həvəsləndirir. KİV-i ingilis dilində oxumaqla və dinləməklə onlar xarici aləm haqqında təsəvvürlər qazanırlar (What is Distance Learning? The Benefits of Studying Remotely, 2024).

## Nəticə

Müasir dövrdə gənclərin beyni bir nəsil əvvəlkindən fərqlənir. Rəqəmsal texnologiya ilə məşğul olmaq beynin strukturunu dəyişdirir. Tələbələr fərqli öyrənmə üslubları olan vizual və ya kinestetik öyrənmə üsullarına yiyələnirlər. Bugünün tələbələri onları əhatə edən ətraf-mühit haqqında məsələlərlə bağlı tənqidi yanaşmalar sərgiləyir. Medianın təsiri ilə formalaşan tənqidi düşünmə bacarıqları onları mövzu haqqında daha dərindən düşünməyə sövq edir və gələcəkdəki peşə fəaliyyəti üçün yeni nailiyyətlər qazandırır.

## Ədəbiyyat

1. Cuban, L. (2001). *Oversold and underused:* Computers in the classroom. Cambridge MA: Harvard University Press, 250.
2. Əliquliyev, R., Mahmudov, R. (2018). Dil sənayesi: İmkanlar, perspektivlər və problemlər. *İnformasiya cəmiyyəti problemləri* №1, 3-26.
3. Haşımova, K. (2016, aprel 15). Multimedia Qalereyası elektron kitabxanaların tərkib hissəsi kimi. "E-kitabxanaların formalaşması problemləri" Respublika elmi-praktiki konfransı, 147-148.
4. Hüseynova, A. (2021). Azərbaycanda distant təhsil: problemlər və perspektivlər. *Azərbaycan məktəbi*, №4, 98-104.
5. Mehrabov, A. (2012). Təhsildə qloballaşma pedaqoji problem kimi. *Azərbaycan məktəbi*, № 4, 21-26.
6. Parviz, M., Sarem, S.N. (2012*). A critical look at the presentation, production (PPP) approach challenges and promises for ELT.* Brain broad research in artificial intelligence and neuroscience 3(4) 31-36, ISSN 2067-3957.
7. Teeler, D., Gray, P. (2000). *How to use the Internet in ELT*. England: Pearson Education Limited, 120.
8. What is Distance Learning? The Benefits of Studying Remotely. (2024, jule 19). https://www.uopeople.edu/blog/what-is-distance-learning.

Daxil oldu: 25.12.2024
Qəbul edildi: 30.03.2025